**DOI: https://doi.org/10.59849/2957-3882.2023.2.140**
**UOT: 32**

# HEYDƏR ƏLİYEV SİYASƏTİNDƏ MULTİKULTURALİZM

**Günay NOVRUZOVA***

***Açar sözlər**: Multikulturalizm, tolerantlıq, Heydər Əliyev, din, dil*

## XÜLASƏ

Multikulturalizm fərqli bölgələrdə fərqli şəkildə inkişaf etmişdir. Azərbaycanda multikulturalizm, tolerantlıq və dini dözümlülüyün dövlət siyasəti səviyyəsində inkişaf etdirilməsinin əsaslarını ölkənin qədim dövlətçilik tarixi və bu ənənələrin inkişafı təşkil edir. XX əsrin sonlarında Ümummilli Lider Heydər Əliyev tərəfindən dövlətçilik ideologiyası formasına çevrilmiş, tolerantlıq və multikulturalizm ənənələri bərpa edilmiş və ənənələr bugün də davam etməkdədir.

## Giriş

Multikulturalizm fərqli bölgələrdə fərqli şəkildə inkişaf etmişdir. Bu fərqlilik multikulturalizmin müxtəlif modellərinin yaranması ilə nəticələnmişdir. Kanada, Amerika, Britanya, Fransa və s. modelləri var (1).

Multikulturalizmin özündə əks etdirən müxtəlif modelləri arasında müqayisə apararkən onu aşağıdakı şəkildə ümumiləşdirmək olar:

- Multikulturalizm müsbət, xoş niyyətlərə köklənmiş amaldır. O, ölkənin çiçəklənməsinə istiqamətlənir, münaqişə ocaqlarının sönməsinə çalışır və millətlərin qarşılıqlı əlaqə inam və etibarını gücləndirir.
- Multikulturalizm xalqlar arasındakı narazılığı azaltmaq məqsədilə istifadə olunan xoşməramlı siyasətdir (2).

## Dünyada və Azərbaycanda multikulturalizmin inkişafı

Multikulturalizmin vüsət aldığı bir dövr olmasına baxmayaraq, müasir dünyamızda yeni proseslərin başlanğıcındadır. Qloballaşma dünyanın ən ucqar nöqtələrində belə meydana gəlir və planetar prizmadan mühüm əhəmiyyət kəsb edir. Günümüzdə dünyanın harasında nə baş verməsindən asılı olmayaraq etnik separatizm, dini ayrı-seçkilik, radikalizm, terrorizm və digər bu kimi trendlərin xüsusiyyətləri yerli çərçivəni çoxdan aşmışdır. Ən qorxulusu isə odur ki, baş verənlərə ədalətli yanaşma olmadıqda və ya proseslərin tənzimlənməsində beynəlxalq hüququn norma və prinsipləri nəzərə alınmadıqda bəşəriyyətimizin qarşısında dayanan təhdidlər daha da mürəkkəb xarakter alır və müxtəlif radikal meyillərin güclənməsinə səbəb olur (4).

Tarixin inkişaf mərhələləri zamanı müxtəlif dinə, dilə, mədəniyyətə sahib olan xalqların birlikdə yaşadıqlarını görmüşük. Xalqların birlikdə yaşamalarının müsbət nəticələrinin olmasına baxmayaraq, mənfi fəsadları ilə də rastlaşmışıq. Fərqli zamanlarda xristian və islam, xristian və bütpərəst, islam və bütpərəst, eləcə də Qərb və Şərq dəyər daşıyıcılarının ziddiyyəti onların bir-birindən təcrid olunmuş şəkildə yaşamasını şərtləndirmişdir və onların birbirinə qarşı dözümlülüyünün yalnız bərabər gücə malik olduqları hallarda mümkün olduğunun şahidi olmuşuq. Qloballaşan dünyada bəzən xalqların birgə yaşaması mümkünsüz görünsədə, beynəlxalq

* *AMEA Şərqşünaslıq İnstitutu.*
*E-mail: gunay.tagiyeva91@gmail.com*

münasibətlərin – istər siyasi, istər iqtisadi, istərsə də mədəni inkişafın birgəyaşayış olmadan mümkün olmaz. Heç bir dövlət özünütəcrid siyasəti ilə mövcüd ola bilməz.

Azərbaycan əsrlər boyu müxtəlif sivilizasiyaların qovşağı olmuş və ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olmuş, bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilmişdir. Azərbaycan xalqının zəngin multikultural keçmişi təkcə xalqımızın bugünkü tolerant yaşam tərzi ilə deyil, həm də yaratmış olduğu ədəbi-bədii, elmi-fəlsəfi, siyasi-hüquqi qaynaqlarda, sənədlərdə yaşayır (4).

Multikulturalizm ingilis dilindən tərcümədə "çoxlu mədəniyyətlər" deməkdir.

Multikulturalizm ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və dinlərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmişdir.

Azərbaycanda multikulturalizm, tolerantlıq və dini dözümlülüyün dövlət siyasəti səviyyəsində inkişaf etdirilməsinin əsaslarını ölkənin qədim dövlətçilik tarixi və bu ənənələrin inkişafı təşkil edir. Müasir Azərbaycanda mükəmməl dövlət-din münasibətləri sisteminin formalaşması və tətbiqi müstəqil dövlətimizin memarı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır (3).

XX əsrin sonlarında Ümummilli lider Heydər Əliyev tərəfindən dövlətçilik ideologiyası formasına çevrilmiş, tolerantlıq və multikulturalizm ənənələri bərpa edilmişdir. Azərbaycan multikulturalizminin siyasi əsasları Azərbaycan Respublikasının Konstitusiyasının bəndlərində, qanunvericilik aktlarında, fərman və sərəncamlarda öz əksini tapmışdır (4).

Dünyəvi dövlətdə dinin yeri, eləcə də qloballaşma prosesinin getdikcə dərinləşdiyi hazırkı dövrdə milli adət-ənənələrin yaşadılması və mənəvi irsin mühafizəsi çağdaş dünyanın ən aktual məsələlərindən biri hesab olunmaqdadır. Zaman keçdikcə sürətlənən qloballaşma prosesi sanki xalqların milli xüsusiyyətlərini və özünəməxsusluğunu əridərək ümumi dəyərlərə sahib vahid dünya cəmiyyəti formalaşdırır

Azərbaycanın sürətli inkişafını, uğurlu xarici və daxili siyasətini, o cümlədən dövlət-din münasibətlərinin effektiv tənzimlənməsini şərtləndirən başlıca amil Umummilli Lider Heydər Əliyevin multikultural siyasəti yürütməsi olmşdur.

Ümummilli Liderimiz Heydər Əliyevin 1993-2003-cü illərdə dövlət-din münasibətləri, milli-mənəvi dəyərlərin qorunması, tolerantlıq və multikulturalizm ideyalarını özündə əks etdirən dəyərli çıxışları, nitqləri olmuşdur.

Heydər Əliyev cəmiyyətimizdəki tolerantlıq və humanizm mühitinə görə xalqımızın yaddaşına borclu olduğumuzu deyirdi. O, Azərbaycan xalqına xas olan insanpərvərlik və tolerantlıq kimi yüksək mənəvi keyfiyyətləri əsas gətirərək ölkəmizdə milli-irqi ayrı-seçkilik, dini dözümsüzlük zəminində humanizmə zidd halların baş verməsini imkansız sayırdı (6).

Multikulturalizm Azərbaycanda əsrlərdən bəri formalaşan, eyni zamanda ictimai-bədii, psixoloji-mənəvi müstəvidən kənara çıxmayan dəyərlər toplusu kimi, xüsusilə sovet ideologiyasının hökmranlıq etdiyi illərdə kifayət qədər sistemsiz və spontan mahiyyətə malik idi. Onun sanki bütün vacib özəllikləri mövcud idi. Tolerantlıq və mənəvi potensial, dini loyallıq və milli özünəməxsusluq, psixoloji səbat və bəşəri dəyərlərə açıqlıq Azərbaycan insanını multikultural bir rejimin içinə salmağa hazır idi. Bu və bu kimi xüsusiyyətlər Azərbaycan ədəbi-bədii düşüncə müstəvisində həm tarixən, həm də bu gün kifayət qədər görümlü və təsiredicidir (6).

Azərbaycanın multikultural ənənələrinin dövlət tərəfindən qorunması işində ən vacib olanı ümummilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə bu məsələnin hüquqi sənədlərdə, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmasıdır. Belə ki, multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq (dözümlülük) prinsipi Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində aydın şəkildə təsbit edilmişdir. Bununla bağlı "Bərabərlik hüququ" (maddə 25, bənd 3), "Milli mənsubiyyət hüququ" (maddə 44, bəndlər 1, 2), "Ana dilindən istifadə hüququ" (maddə 45, bəndlər 1, 2) və başqa maddələri göstərmək mümkündür (6).

Ulu öndər haqlı olaraq multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik-mədəni, dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü. Ulu öndərin rəhbərliyi ilə, nəhayət ki, dönüşü olmayan demokratik inkişaf yoluna çıxmış Azərbaycan Respublikası, onun qeyd etdiyi kimi, "dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşlarının eyni hüquqlara malik" olmalarını təmin etməli idi (6).

Təbii olaraq, ulu öndər etnik millətçiliyə alternativ kimi bütövlükdə Azərbaycan xalqının və cəmiyyətinin, eyni zamanda Azərbaycan dövlətçiliyinin yüksəlişini şərtləndirən və multikulturalizmin əsas mənəvi bazası olan azərbaycançılıq prinsipini milli ideologiya kimi irəli sürdü. O qeyd etdi ki, etnik millətçilik, nəhayət etibarilə, etnik separatizmə, xalqlar arasında münaqişəyə gətirib çıxarır. Azərbaycançılıq ideologiyası isə dinindən, dilindən, irqindən asılı olmadan ölkədə yaşayan bütün vətəndaşları birləşdirir. Ulu öndərin dediyi kimi, həqiqətən də "Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da - bütünlükdə hamısı azərbaycanlıdır". Bu sözlər bu gün də son dərəcə əhəmiyyətlidir və belə bir aydın siyasi həqiqəti aktuallaşdırır: biz, yəni Azərbaycanda yaşayan bütün xalqlar məhz bir yerdə, məhz azərbaycanlı olaraq dünya üçün maraq kəsb edə bilərik. Biz ayrı-ayrılıqda heç kim üçün maraqlı deyilik!

Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. Əsrlərdir ki, xalqımız tolerantlıq, dözümlülük, başqa dinlərə və mədəniyyətlərə hörmət prinsiplərini həyat tərzinə çevirərək bu prosesə mühüm töhfələr verib. Ona görə də Prezident İlham Əliyevin 2016-cı ili Azərbaycanda “Multikulturalizm ili” elan etməsi heç də təsadüfi deyil və bunun dərin tarixi kökləri var. Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 10-da Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində bu barədə deyib: “Azərbaycan multikulturalizmlə bağlı çox böyük işlər görüb. Azərbaycan nümunəsi göstərir ki, multikulturalizm yaşayır. Baxmayaraq bəzi siyasətçilər deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Bəlkə haradasa iflasa uğrayıb. Amma Azərbaycanda yaşayır və bu meyillər, bu ideyalar güclənir, ictimaiyyətdən də daha çox dəstək alır. Biz bu yolla gedəcəyik. Beləliklə, bu il Azərbaycanda “Multikulturalizm ili” elan olunur” (7).

**Nəticə**

Multikulturalizm Qərb ölkələrində yaranmasına baxmayaraq, bugün Azərbaycan bütün dövlətlərə nümunə göstəriləsi multikultural siyasət yürütməkdədir. Qədim tarixə malik olan Azərbaycan xalqı tolerantlıq, dözümlülük, başqa dinlərə və mədəniyyətlərə hörmət prinsiplərini həyat tərzinə çevirərək bu prosesə mühüm töhfələr verib. Azərbaycanda multikulturaliz ənənələrinin yüksək həddə çatmasının ilk səbəblərindən biridə ulu öndər Heydər Əliyev siyasəti olması idi. Azərbaycan Prezidenti İlham Əliyev bu ənənəyə sadiq qalaraq multikulturalizim siyasətini daim yaşatmış və qeyd etdiyimiz kimi, 2016-cı ili Azərbaycanda “Multikulturalizm ili” elan etmişdir.

## ƏDƏBİYYAT:


1. Nigar Çingiz qızı Məhərrəmova “Orta əsrlərdə Linqivistik müxtəlflik Britaniya Mutikulturalizminin formalaşmasına təsiri” Bakı 2022
2. http://bakuform.az/az/multikulturalizm.naliyyetler-ve-problemler?fid=2258
3. Heydər Əliyev siyasəti tolerantlıq. (çıxışlar,nitqlər,görüşlər,təbriklər) Bakı-2015, “Elm-təhsil”səh-504
4. Ərəstü Həbibbəyli .Multikultural dəyərlər ”ilkin” və “sonrakı” müxtəliflik prizmasında

5. Ümummilli lider Heydər Əliyevanadan olmasının 98-ci ildönümünə həsr olunmuş “”Azərbaycanın dövlət müstəqilliyiin möhkəmləşdirilməsi və inkişafında Heydər Əliyevin rolu
6. Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir http://www.anl.az › down › meqale › azerbaycan › iyun
7. .https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Multikulturalizm_Azerbaycanda_heyat_terzidir-918878


## РЕЗЮМЕ

***Гюнай НОВРУЗОВА***

***Мультикультурализм в политике Гейдера Алиева***

***Ключевые слова***: *Мультикультурализм, толерантность, Гейдар Алиев, религия, язык*

Мультикультурализм развивался по-разному в разных регионах. Основой развития мультикультурализма, толерантности и религиозной толерантности в Азербайджане на уровне государственной политики является древняя история государственности страны и развитие этих традиций. В конце XX века общенациональный лидер Гейдар Алиев преобразовал ее в форму идеологии государственности, традиции толерантности и мультикультурализма были восстановлены и продолжаются сегодня.

## ABSTRACT

***Gunay NOVRUZOVA***

***Multiculturalism in Heydar Aliyev's Policy***

***Keywords:*** *Multiculturalism, tolerance, Heydar Aliyev, religion, language*

Multiculturalism has developed differently in different regions. The basis for the development of multiculturalism, tolerance, and religious tolerance in Azerbaijan at the level of state policy is the country's ancient statehood history and the development of these traditions. At the end of the 20th century, national leader Heydar Aliyev transformed it into a form of statehood ideology; the traditions of tolerance and multiculturalism were restored, and the traditions continue today.